# Əhməd Cavad anıldı










Prezident İlham Əliyevin "Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında" 2022-ci il 20 aprel tarixli Sərəncamına uyğun olaraq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dekabrın 22-də "İstiqlal şairi Əhməd Cavad" mövzusunda tədbir keçirildi.

Giriş sözü ilə Universitetin Elm və yaradıcılıq işləri üzrə prorektoru Sədaqət Əliyeva çıxış etdi.

Universitetin Ədəbiyyat və dillər kafedrasının müdiri, professor Fəridə Səfiyevanın "Zülmə qarşı üsyankaram, əzilsəm də susmaram" mövzusunda məruzəsi dinlənildi.

Tədbirin qonaqları professor Himalay Qasımov, professor Asif Rüstəmli, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, dosent Lütviyyə Əsgərova böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın həyat və yaradıcılığı barədə maraqlı faktları iştirakçıların nəzərinə çatdırdılar.

Universitetin Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru, professor Gülşən Əliyeva Kəngərli keçirilən tədbirin əhəmiyyətindən danışdı.

Universitetin müəllimi yazıçı-dramaturq Əli Əmirli çıxışında Əhməd Cavad yaradıcılığının və şəxsiyyətinin daha dərindən öyrənilməsinin vacibliyini vurğuladı.

Görkəmli ədəbin nəticəsi Cavad Axundzadə valideynlərinin Əhməd Cavad və Şükriyyə xanım haqqında xatirələrini iştirakçıların diqqətinə çatdırdı.

Tədbirin bədii hissəsində tələbələrin ifasında Ə.Cavadın şeirləri (Azərbaycan və ingilis dillərində) səsləndirildi, sözlərinə yazılan mahnılar dinlənildi.

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 24 dekabr.- S. 14.**